Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 12 iyun 2012-ci il tarixli 03 № Qərarı ilə təsdiq edilmişdir.
15201206120003 qeydiyyat nömrəsi ilə Hüquqi aktın Dövlət Reyestrinə daxil edilmışdir və 21 iyun 2012-ci il tarixdən respublika ərazisində qüvvəyə minmişdir.

# «Tikinti üçün layihə işlərinə qiymətlər toplusunun tətbiqi üzrə Ümumi göstərişlər»

## GİRİŞ

Tikinti üçün layihə işlərinin qiymətlər topluları (bundan sonra Toplu adlanacaq), ölkə iqtisadiyyatının müxtəlif sahələrində yeni müəssisə, bina və qurğuların tikintisinə və mövcud olanların genişləndirilməsi, yenidən qurulması və texniki cəhətdən yenidən təchiz edilməsinə dair layihə-smeta sənədlərinin, həmçinin rayon, şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilməsinə dair sxem və layihələrin hazırlanması dəyərinin müəyyən edilməsi üçün nəzərdə tutulmuşdur.

Tikinti üçün layihə işlərinin qiymətlərinin hesablanması, «Tikinti üçün layihə işlərinə qiymətlər toplusunun tətbiqi üzrə Ümumi göstərişlər»ə (bundan sonra Ümumi göstərişlər) və layihələndirilən obyektin xüsusiyyətlərini, müəssisə, bina və qurğuların tikintisinə layihə-smeta sənədlərinin qiymətlərinin tətbiqi qaydalarını əks etdirən toplulara əsasən aparılır.

Toplular üzrə tikinti üçün layihə işləri qiymətləndirilərkən, Ümumi göstərişlərin tətbiq edilməsi (hər-hansı bölmədə qiymətlərin tətbiqi qaydası şərtləndirildiyi və Ümumi göstərişlərdəki şərtlərdən fərqləndiyi hal istisna olmaqla) vacibdir.

Toplu, Azərbaycan Respublikasının Iqtisadi Inkişaf Nazirliyi, Maliyyə Nazirliyi və Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılaraq Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmişdir.

# I. QİYMƏTLƏRİN İŞLƏNMƏSİNİN ƏSAS MÜDDƏALARI

**1.1** Tikinti üçün layihə işlərinin baza qiymətləri, layihələndirilən obyektlərin əsas göstəricilərinə (gücü, ölçüsü, həcmi, sahəsi və s.) uyğun işlənmişdir.

**1.2** Toplularda göstərilən qiymətlər, müvafiq normativ sənədlərlə tənzimlənməklə, müəssisə, bina və qurğuların tikintisi üzrə layihə-smeta, eləcə də rayon planlaşdırılması, şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikintisi üzrə layihə sənədlərinin tərkibi, işlənməsi, razılaşdırılması və təsdiqi qaydalarına uyğun olaraq hazırlanmışdır.

**1.3** Toplularda istehsal, yaşayış və ictimai təyinatlı yeni obyektlərin (kompleksin tərkibinə daxil olan sex, bina və qurğuların) tikintisinin fərdi layihələndirilməsinin baza qiymətləri verilmişdir.

Obyektlərin yenidən qurulması, genişləndirilməsi və texniki cəhətdən təchiz edilməsi üçün layihə-smeta sənədlərinin dəyərini təyin etmək məqsədi ilə toplularda ayrı-ayrı sex, bina və qurğuların (kompleksin tərkibinə daxil olan) fərdi layihələndirilməsi, eləcə də birtipli layihələrin dəyərini təyin etmək üçün baza qiymətləri verilmişdir.

Müəssisə, bina və qurğuların fərdi layihələndirilməsi üçün verilmiş qiymətlərdə, onların tərkibinə daxil olan sex, bina və qurğuların birtipli, iqtisadi cəhətdən səmərəli və təkrar tətbiq edilən layihələrin, eləcə də birtipli inşaat konstruksiyaları, məmulatları və qovşaqları cizgilərinin dəyəri nəzərə alınmışdır.

Qüvvədə olan layihələr ləğv edildikdə və əvəzinə yeni birtipli layihələr qüvvəyə mindikdə, birtipli konstruksiyalara əlavə olaraq fərdi inşaat konstruksiyalarının tətbiqi zərurəti yaranarsa, qiymətlər dəyişməz qalır.

**1.4** Toplunun 1.2 bəndində göstərilən və normativ sənədlərlə təyin olunan işlərdən başqa, toplulardakı qiymətlərdə layihə təşkilatlarının aşağıdakı işlər ilə əlaqədar xərcləri də nəzərə alınmışdır:

- işçi layihənin (layihənin) ekspertizası və təsdiq edilmə mərhələsində müdafiəsi, eləcə də bunun üçün zəruri olan nümayiş materiallarının (maketlər, elektron versiyalı prezentasiya materialları) hazırlanmasında iştirak;
- işçi komissiyası və dövlət qəbulu komissiyasında iştirak;
- müəssisə, buraxılış kompleksləri və obyektlərin tikintisinin müqavilə qiymətlərinin təyin edilməsində iştirak.

**1.5** Toplularda göstərilən qiymətlərdə aşağıdakı xərclər nəzərə alınmamışdır:

- layihə tapşırığında verilmiş layihə həllərinin bir neçə variantda və müsabiqə əsasında (variantlı işlənməni nəzərə almaqla, işçi layihənin (layihənin) yerinə yetirilməsi istisna olmaqla) işlənməsi;
- konstruksiyaları və işlərin aparılması metodu xüsusilə mürəkkəb olan obyektlərin layihələndirilməsində köməkçi qurğu, vasitə və mexanizmlərin işçi cizgilərinin işlənməsi;

- tikinti meydançasının (trassanın) seçilməsində layihə təşkilatlarının iştirakı;

- bina və qurğuların monumental-dekorativ tərtibatı həllərinin işlənməsi;

- yeni normativ sənədlərin qüvvəyə minməsi və avadanlıqların daha mütərəqqisi ilə əvəz olunması ilə əlaqədar işçi sənədlərdə dəyişikliyin aparılması;

- zavodda istehsal olunan detallaşdırılmış metal konstruksiyaların (DMK) və texnoloji boru kəmərlərinin cizgilərinin işlənməsi;

- yenidən qurulan, genişləndirilən və yenidən texniki cəhətdən təchiz edilən obyektlərdə müayinə və ölçü işlərinin yerinə yetirilməsi;

- standartlaşdırılmamış və birtipli olmayan avadanlıqların hazırlanması üçün konstruktor sənədlərinin işlənməsi (belə sənədlərin işlənməsi üçün texniki tapşırığın hazırlanmasına ilkin tələblərin tərtib olunmasından başqa);

- nümayiş materialları (maketlər, elektron versiyalı prezentasiya materialları);

- tikinti-quraşdırma işlərinin icra layihəsi, tikinti təşkilatlarının ehtiyacı üçün müvəqqəti bina və qurğuların tikintisinə layihə-smeta sənədləri;

- müəllif nəzarəti;

- layihələndirmə zamanı elmi-tədqiqat və təcrübə-sınaq işləri;

-xidməti ezamiyyə xərcləri (inzibati heyətin ezamiyyə xərclərindən başqa).

## II. LAYİHƏ İŞLƏRİNİN DƏYƏRİNİN TƏYİN EDİLMƏSİNİN ÜMUMİ QAYDALARI

**2.1** İşçi layihənin (layihə) işlənməsi dəyəri aşağıdakı düsturla təyin olunur:

$$\mathbf{D_{il(l)} = Dxk_{1;\ 2}}.$$

Burada: $\mathbf{D_{il(l)}}$ **-** işçi layihənin işlənməsi dəyəri (manat);

**D-** işçi sənədin işlənməsi dəyəri (manat);

$\mathbf{k_1}$ –layihə dəyərinin işçi sənədin dəyərinə nisbəti;

$\mathbf{k_2}$**-** işçi layihənin (işçi sənədlər daxil olmaqla) dəyərinin işçi sənədin dəyərinə nisbəti.

İşçi sənədin işlənməsi dəyəri (D) aşağıdakı düsturla təyin edilir:

$$\mathbf{D=a+bx.}$$

Burada: **a və b** –layihələndirilən obyektin əsas göstəricisinin müəyyən interval üçün sabit kəmiyyətidir, manat.

**x-** layihələndirilən obyektin əsas göstəricisidir.

**a, b,** $\mathbf{k_1}$ **və** $\mathbf{k_2}$-nin göstəriciləri toplularda verilmişdir.

**2.2** Fəaliyyətdə olan müəssisə, sex, bina və qurğuların yenidən qurulması (yenidən texniki cəhətdən təchiz edilməsi) üçün layihə-smeta sənədlərinin işlənməsi dəyəri, layihələndirilən obyektin yenidən qurulması (yenidən texniki cəhətdən təchiz edilməsi) nəticəsində əldə olunacaq əsas göstəricinin qiyməti əsasında və layihə işlərinin əmək tutumuna uyğun olaraq, sifarişçi ilə razılaşdırmaqla, layihə təşkilatı tərəfindən toplulardakı qiymətlərə 1,2-ə qədər əmsal tətbiq edilməklə təyin edilir.

Ən yüksək əmsal, müəssisə, sex, bina və qurğular tam yenidən qurulduqda və yenidən texniki təchiz edildikdə tətbiq edilir. Müəssisə, sex, bina və qurğuların yalnız bir hissəsində, yaxud yardımçı və xidməti təyinatlı hissəsində yenidənqurma (yenidən texniki cəhətdən təchiz edilməsi) işləri nəzərdə tutulursa, layihə işlərinin həcmi yeni tikili ilə müqayisə edilərək, 1,0-dən aşağı olmaqla azaldıcı əmsal tətbiq edilir.

Müəssisənin genişləndirilməsi, fəaliyyətdə olan sex, əsas, yardımçı və xidməti təyinatlı obyektlərin yenidən qurulması ilə eyni zamanda həyata keçirildikdə, layihə-smeta sənədlərinin işlənməsi dəyəri yuxarıda göstərilən qaydada təyin edilir.

Müəssisənin genişləndirilməsi üçün layihə-smeta sənədlərinin işlənməsi dəyəri yeni tikintidə olduğu kimi təyin edilir.

**2.3** Birtipli layihələrin işlənməsi dəyəri 1,4 əmsalını tətbiq etməklə, toplularda verilmiş qiymətlərə əsasən təyin edilir.

**2.4** Birtipli layihələrin bağlanması (birtipli və ya təkrar istifadə olunan layihələrdə konkret tikinti sahəsindən və inşaat materiallarından asılı olaraq zəruri düzəlişlər edilərək tətbiqi) dəyəri, toplunun qiymətlərinə əsasən 0,25 əmsalını tətbiq etməklə təyin edilir. Dəyişiklik etməklə birtipli layihələrin bağlanma dəyəri, fərdi layihə-smeta sənədlərinin işlənməsi dəyərinə 0,5 əmsal tətbiq etməklə toplularda verilmiş qiymətlərə əsasən təyin edilir.

**2.5** Sex, bina və qurğuların birtipli layihələrinin bağlanması, baxılan birtipli layihənin yerləşməsinə nisbətən güzgüəksi təsvirində olarsa, bağlanma dəyərinə 1,2 əmsalı tətbiq edilir.

**2.6** Birtipli layihələrə olan tələblərə uyğun olaraq hazırlanan sahə təyinatlı bir sira eyni obyektlərin tikintisi üçün fərdi layihələrin işlənməsi və bağlanması dəyəri 2.3-2.5 bəndlərində müəyyən olunmuş qaydada təyin edilir.

**2.7** Qüvvədə olan normativ sənədlərlə nəzərdə tutulan tərkib və həcmə zidd olaraq, ixtisarlarla yerinə yetirilmiş layihə işlərinin dəyəri (layihənin əlavə variantlarının işlənməsi, yaxud layihə tapşırığına uyğun ayrı-ayrı texnoloji, konstruktiv, memarlıq və s. hallərin işlənməsi), azaldıcı əmsal tətbiq edilməklə, müvafiq obyektin layihə-smeta sənədlərinin işlənməsi üçün müəyyən edilmiş qiymətlərlə təyin edilir. Azaldıcı əmsal işin əmək tutumuna uyğun olaraq sifarişçinin razılığı ilə layihə təşkilatı tərəfindən müəyyən edilir.

**2.8** Tikintinin aparılması növbələrlə nəzərdə tutulursa, müəssisə və qurğuların işçi layihələrinin (layihələrin) işlənməsi dəyəri, hər bir növbənin göstəriciləri əsasında, toplulardakı qiymətlər üzrə təyin edilir. Eyni zamanda, tikintinin birinci növbəsinin layihələndirmə dəyərinə, işçi layihənin (işçi sənədlərsiz) və ya bütün növbəti mərhələlərin layihə sənədlərinin işlənməsi dəyərinin 20%-dək olan hissəsi əlavə edilir.

**2.9** Layihə tapşırığında nəzərdə tutulmuş istehsalın assimilyasiyası ilə əlaqədar layihə-smeta sənədlərinin işlənməsi dəyəri, müvafiq müəssisənin layihələndirilməsi üçün topluların qiymətləri əsasında, bu toplularda verilmiş azaldıcı əmsalı tətbiq etməklə təyin edilir.

Göstərilən əmsal toplularda olmadığı halda, onun ölçüsü, sifarişçi ilə razılaşdırılaraq, layihə təşkilatı tərəfindən təyin edilir.

**2.10** Subpodrat layihə təşkilatı tərəfindən yerinə yetirilən ayrı-ayrı sex, bina və qurğuların layihə-smeta sənədlərinin dəyəri, baş layihəçi tərəfindən layihələndirmə dəyərinin hesablandığı toplulardakı qiymətlərə uyğun hesablanır.

**2.11** Qiymətlərdə nəzərə alınmış layihə işlərinin növləri üzrə dəyəri, toplunun bölmələrində göstərilmiş nisbi dəyər cədvəllərindəki qiymətlərlə təyin edilir və işlər istər layihə təşkilatının öz qüvvəsi ilə yerinə yetirildikdə, istərsə də qismən subpodrat layihə təşkilatına verildikdə, layihənin ümumi həcmi çərçivəsində hər mərhələ üzrə işlərin dəyəri layihə təşkilatı tərəfindən subpodrat təşkilatlarla razılaşdırmaqla dəqiqləşdirilə bilər.

Layihə işlərinin növləri üzrə nisbi dəyər cədvəllərində göstərilməmiş digər layihə işlərinin nisbi dəyəri də bu qaydada təyin edilir.

Toplularda yeni tikililər üçün verilmiş layihə-smeta sənədlərinin işlənməsinin nisbi dəyər cədvəlləri, fəaliyyətdə olan müəssisə, bina və qurğuların yenidən qurulması və texniki cəhətdən yenidən təchiz edilməsi üçün layihə-smeta sənədlərinin dəyərinə tətbiq edilmir.

İşlər bir layihə təşkilatı tərəfindən yerinə yetirildikdə hər bir layihə işi növünün əmək tutumundan asılı olaraq bina və qurğuların yenidən qurulması və texniki cəhətdən yenidən təchiz edilməsi üçün layihə-smeta sənədlərinin nisbi dəyərinin hesablanması da (müəyyənləşdirilmiş ümumi qiymət çərçivəsində) həmin təşkilat tərəfindən yerinə yetirilir. Layihə işləri subpodrat təşkilatı cəlb etməklə yerinə yetirilərsə, bu iş növlərinin nisbi dəyəri həmin təşkilatla razılaşdırılmaqla təyin edilir.

**2.12** Müəssisə, sex, bina və qurğuların layihə-smeta sənədlərinin işlənməsi üçün qiymət toplularında bütün sahədaxili mühəndis şəbəkəsi, kommunikasiya və qurğuların (elektrik təchizatı, su təchizatı, kanalizasiya, istilik təchizatı və s.) layihələndirmə dəyəri nəzərə alınmışdır. Bu dəyərə sex, bina və qurğuların sahədaxili şəbəkələrə birləşdirilməsi, eləcə də baş plana uyğun tikinti meydançası sərhədlərində abadlaşdırma işlərinin aparılması da daxildir.

**2.13** Toplularda hər-hansı bir tikinti obyektinin layihə-smeta sənədlərinin işlənməsi dəyəri göstərilmədiyi və analoq olmadığı təqdirdə, layihənin dəyəri əmək sərfinə görə hesablanır. Çox mürəkkəb, unikal bina və qurğuların layihə-smeta sənədlərinin işlənməsi dəyəri, toplunu işləyən layihə institutunun təsdiq olunmuş rəyi, sifarişçi idarə, müvafiq dövlət orqanının razılığı ilə əmək sərfinə görə hesablana bilər.

Eyni bir obyektin layihələndirilməsi dəyərinin əmək sərfinə görə iki dəfədən çox hesablanması yolverilməzdir.

Layihə işlərinin dəyəri bu üsulla iki dəfə hesablandıqdan sonra, həmin obyektin layihələndirilməsi üçün müəyyən edilmiş qaydada qiymətlər işlənir və təsdiq edilir.

**2.14** Layihələndirilən obyektin əsas göstəriciləri əsasında hesablanmış layihə-smeta sənədlərinin dəyəri onların işlənməsi zamanı dəqiqləşdirilmiş göstəricilərə görə yenidən hesablanmır.

**2.15** Layihələndirilən obyektin əsas göstəricisi, toplunun qiymət cədvəllərində göstərilmiş minimal göstəricidən aşağı və maksimum göstəricidən çox olduğu təqdirdə, işçi sənədlərin hazırlanması dəyəri 1 saylı əlavədə verilmiş düstur ilə ekstrapolyasiya (iki məlum kəmiyyət arasında yerləşməyən naməlum kəmiyyətin təyin edilməsi) üsulu ilə təyin edilir.

Qəbul edilmiş göstərici cədvəldə verilmiş minimal göstəricinin yarısı və yaxud maksimal göstəricinin iki mislindən çox olarsa, layihə işlərinin dəyəri 2.13 bəndində göstərilmiş qaydada təyin edilir. Bu ekstrapolyasiya qaydası, cədvəldəki minimal göstəricilərin qarşısında «qədər», maksimal göstəricilərdən sonra «yuxarı» sözləri yazıldığı halda da tətbiq edilir.

**2.16** Sənaye sobaları və quruducular; xarici mühəndis şəbəkəsi, kommunikasiya və qurğuları; mülki müdafiənin mühafizə qurğuları; müəssisələrin avtomatik idarəetmə sistemi (MAİS); texnoloji proseslərin avtomatik idarəetmə sistemi (TPAİS); avtomatik yanğınsöndürmə; yanğın və mühafizə siqnalizasiyası qurğuları; qaztəmizləyici və toztutucu qurğuların layihələndirmə dəyəri, müvafiq toplular üzrə müəssisə, bina və qurğuların tikintisinin layihə-smeta sənədlərinin hazırlanması dəyərinə əlavə olaraq təyin edilir.

# III. ƏMƏK TUTUMUNA TƏSİR EDƏN ƏLAVƏ FAKTORLARI NƏZƏRƏ ALMAQLA, LAYİHƏ İŞLƏRİNİN DƏYƏRİNİN TƏYİN EDİLMƏSİ QAYDALARI

**3.1** Maket üsulunu tətbiq etməklə, layihə-smeta sənədlərinin işlənməsi dəyəri, maketin hazırlanmasına çəkilmiş xərclər nəzərə alınmaqla, çoxaldıcı əmsal tətbiq edilməklə, toplularda göstərilmiş qiymətlərlə təyin edilir.

Əgər toplularda əmsallar təyin edilməmişdirsə, yuxarıda göstərilən metodla layihə-smeta sənədlərinin işlənməsi dəyəri, əmsallar tətbiq edilməklə toplulardakı qiymətlər üzrə təyin edilir:

«Layihə» mərhələsində – 1,05;

«İşçi layihə» mərhələsində – 1,1;

«İşçi sənədlər» mərhələsində - 1,1.

**3.2** Sifarişçi nazirliyin, komitənin, idarənin qərarı əsasında, obyektin tikintisi eksperimental tikinti planına daxil edilərsə, layihə-smeta sənədlərinin işlənməsi dəyəri, toplulardakı qiymətlər üzrə təyin edilir. Bu halda mürəkkəbləşən layihə işləri növlərinin dəyərinə 1,5 əmsalı tətbiq edilir.

***Qeyd.*** *Eksperimental tikinti üçün layihə-smeta sənədlərinin işlənmə dəyərini təyin etmə qaydaları eksperimental obyektlərin layihələndirilməsi və tikintisi üzrə qüvvədə olan normativ sənədlərə uyğun müəyyən edilmişdir.*

**3.3** Mürəkkəb şəraitdə müəssisə, bina və qurğuların tikintisi üçün layihə-smeta sənədlərinin işlənməsi dəyəri müvafiq toplulardakı qiymətlər üzrə layihə işlərinin (normativ sənədlərə əsasən xüsusi tələblər müəyyən edilmiş) dəyərinə aşağıdakı əmsalların tətbiqi ilə təyin edilir:

| Layihələndirməni mürəkkəbləşdirən faktorlar | Əmsal | |
|---|---|---|
| | «Layihə» mərhələsində | «İşçi layihə» və «İşçi sənədlər» mərhələsində |
| Daimi donan, çökən, şişən qruntlar; karst və sürüşmə halları; tikinti meydançasının mədən qazmaları üzərində, subasar rayonlarda yerləşməsi | 1,05 | 1,2 |
| Seysmiklik: 7 bal | 1,05 | 1,2 |
| Seysmiklik: 8 bal | 1,1 | 1,3 |
| Seysmiklik: 9 bal | 1,1 | 1,4 |

İki və daha artıq mürəkkəblik faktoru olarsa, əmsallar hər faktora görə ayrıca tətbiq edilir.

**3.4** Təhlükəli fiziki-geoloji proses və hallardan (sürüşmə, sel, uçqun və s.) xüsusi müdafiə qurğularının layihələndirmə dəyəri, şəraitdən asılı olaraq əmək tutumuna əsasən hesablanır və əlavə ödənilir.

**3.5** Əsas texnoloji avadanlığı idxal olunmaqla tikilən bina, müəssisə, və qurğuların layihə-smeta sənədlərinin işlənməsi dəyəri, əgər bu avadanlıq layihə təşkilatı tərəfindən ilk dəfə tətbiq olunursa, toplunun qiymətlərinə əsasən təyin olunur. Bu avadanlığın istifadə olunması ilə mürəkkəbləşən layihə işləri növlərinin dəyərinə sifarişçinin razılığı əsasında 1,3-ə qədər əmsal tətbiq olunur.

**3.6** Layihə təşkilatının baş layihəçi funksiyasını həyata keçirməsi və başqa ixtisaslaşdırılmış layihə təşkilatlarını cəlb etməsi ilə əlaqədar xərcləri subpodrat layihə təşkilatlarına verilmiş layihə-smeta sənədlərinin işlənilməsi dəyərinin 2%-i həcmində təyin edilir və əlavə olaraq ödənilir.

**3.7** Eyni bir toplunun hər hansı fəslində (cədvəlində) göstərilmiş qiymətlərin tətbiqi üzrə göstərişlərin və düzəliş əmsallarının layihə işlərinin digər fəsil (cədvəl) üzrə dəyərinin təyin edilməsində tətbiqinə icazə verilmir.

**3.8** Sifarişçinin xahişi ilə müvafiq normativ sənədlərə uyğun olaraq ona verilmiş layihə-smeta sənədlərinin əlavə nüsxələrinin çıxarılması, eləcə də sənədlərin tirajlanması xidmətlərinin dəyəri, bu işlərin maya dəyərinə və işlərin aparıldığı ildən əvvəlki ilin rentabellik səviyyəsinə əsasən təyin edilir.

***Qeyd.*** *Birtipli layihə sənədlərinin nüsxələrinin əldə edilməsinin dəyəri, topluda göstərilmiş qiymətlərdə nəzərə alınmışdır.*

**3.9** Bilavasitə tikintinin texniki-iqtisadi əsaslandırması (TİƏ) əsasında hazırlanmış işçi sənədlərin işlənmə dəyəri (layihə yerinə yetirilməyərək) sifarişçi ilə razılaşdırılaraq layihənin işlənmə dəyərini 50%-ə qədər artırmaqla təyin edilir.

**3.10** Xarici ölkələrdəki obyektlərin tikintisinin layihələndirilməsini tənzimləyən müvafiq normativ sənədlərə əsasən layihə-smeta sənədlərinin dəyəri aşağıdakı kimi təyin edilir:

- TİƏ-nin və tikinti üzrə texniki-iqtisadi təkliflərin (TİT) hazırlanması dəyəri, müvafiq olaraq 0,4 və 0,25 əmsallarını tətbiq etməklə layihənin işlənməsi qiymətləri ilə təyin edilir.

TİƏ və TİT-lər işləndiyi zaman müəssisə, bina və qurğular üçün tikinti meydançasının (trassanın) seçilməsi həyata keçirilərsə, yuxarıda göstərilən əmsallar 0,05 qədər artırılır.

- müəssisə, bina və qurğuların yeni tikintisi üçün layihə, işçi layihə və işçi sənədlərin işlənməsi dəyəri, toplularda göstərilmiş qiymətlərə müvafiq olaraq, 1,2; 1,04 və 1,0 əmsallarının tətbiq edilməsi ilə təyin edilir.

Fəaliyyətdə olan müəssisə, bina və qurğuların genişləndirilməsi, yenidən qurulması və texniki cəhətdən yenidən təchiz edilməsi üçün layihə-smeta

sənədlərinin işlənməsi dəyəri, bu göstərişin 2.2 bəndində göstərilmiş qaydada təyin edilir.

Xarici firmalar tərəfindən hazırlanan layihə sənədlərinin ekspertizası aparıldıgı halda:

- xarici sifarişçilər tərəfindən hazırlanmış avadanlıq və materialların spesifikasiyalarına baxılması və tamamlanması;

- obyektin istismarı üçün lazım olan material, ehtiyat hissələri, qovşaq və detalların spesifikasiyalarının tərtibi, baş təchizatçı və baş podratçının ayrı-ayrı tapşırığı ilə yerinə yetirilən digər işlərin dəyəri əmək tutumuna görə təyin edilir.

**3.11** Layihə işlərinin dəyəri topludakı qiymətlərlə təyin edilən zaman bir neçə mürəkkəblik faktoru olduğu halda, vahiddən böyük bir neçə əmsalın tətbiqi lazım olduqda ümumi çoxaldıcı əmsal, bir vahid və əmsalların kəsr hissələrinin cəmlənməsi yolu ilə təyin edilir (bəndlər: 3.1-3.3; 3.5; 3.10-nun 6-cı abzası).

Məsələn: Verilir 1,1; 1,2; 1,3 əmsalları.

Tapılan əmsal 1+0,1+0,2+0,3=1,6 olar.

Qiymətlərə vahiddən kiçik bir neçə əmsal tətbiq edərək layihə işlərinin dəyərini təyin etdikdə, ümumi azaldıcı əmsal, bu əmsalların bir-birinə vurulması yolu ilə təyin edilir.

Azaldıcı və çoxaldıcı əmsallar eyni vaxtda tətbiq edildikdə, əvvəlcə, göstərilmiş qaydada ümumi artırılmış və ümumi azaldılmış əmsallar təyin edilir, sonra isə onlar bir-birinə vurulur.

## MÜRƏKKƏBLİK FAKTORLARINI NƏZƏRƏ ALMAQLA ƏLAVƏ TƏTBİQ OLUNAN ƏMSALLAR

| **Mürəkkəblik faktorları** | **Layihənin hazırlanma dəyərinə əmsallar** | |
|---|---|---|
| | **Layihənin TİƏ və TİT-i** | **İşçi layihənin, işçi sənədlərin** |
| **1** | **2** | **3** |
| **1.** Texniki sənədlərin mətnləri, cizgi üzərindəki yazıların xarici dilə tərcüməsi | 1,1 | 1,05 |
| **2.** Xarici sifarişçinin sənədlərinin Azərbaycan dilinə tərcüməsi | 1,03 | 1,03 |
| **3.** Hesabat, cizgi və spesifikasiya, iş həcmlərinin hesablanması, smeta sənədləri və digər layihə materiallarının iki dəfə yoxlanılması, kalkaların dublikatlarının çıxarılması, layihə sənədlərinin tərtibi və qablaşdırılmasına yüksək tələblər | 1,2 | 1,1 |
| **4**. Layihə işlərinin əmək tutumunun artırılmasına təsir edən digər faktorlar.<br>**4.1** Azərbaycan Respublikası ilə müqayisədə cərəyan tezliyi və gərginlik, cərəyan tezliyi rəqsinin buraxıla bilən hüdudlarındakı fərq (elektrik avadanlıqlarının layihələndirmə dəyərinə, zəif cərəyanlı elektrik təchizatı, nəzarət ölçü cihazları və avtomatika (NÖCA), lazım gə-lərsə digər bölmələrdə) | 1,1 | 1,05 |
| **4.2** Quru və rütubətli tropik iqlim | 1,15 | 1,1 |
| **4.3** Layihənin sifarişçisi olan xarici ölkədən alınmış və yaxud 3-cü ölkədən təchiz edilmiş avadanlıq və materialların tətbiqi ilə layihə-smeta sənədlərinin işlənməsi | 1,3 | 1,3 |
| **4.4** Layihələndirmə tapşırığında sifarişçi ilə əvvəlcədən razılaşdırılmış xarici norma və stan- | | |

| | | |
|---|---|---|
| dartların avadanlıq və materiallara tətbiqi, bunlarla konstruksiyaların və sairənin hesabatlarının aparılması | 1,15 | 1,2 |
| **4.5** Podrat üsulu ilə aparılan tikinti obyektləri və eləcə də müvəqqəti gətirilən avadanlıq və materiallara spesifikasiyaların tutulması ilə əlaqədar layihə-smeta sənədlərinə əlavə tələblər | 1,1 | 1,1 |

***Qeyd.*** *Çoxaldıcı əmsal ayrıca sex, bina və qurğuların layihə hallinə aidiyyəti olan layihə-smeta sənədlərinin bölmə və yaxud hissələrinin dəyərinə tətbiq edilir.*

**Əlavə 1**

**Toplunun bölmələrində göstərilən cədvəllərdə verilmiş qiymətlərdən aşağı və yuxarı göstəricilər olarsa obyektin layihələndirmə dəyərinin təyin edilməsinə Nümunə**

| Sıra № | Layihələndirilən obyektin adı | Layihələndirilən obyektin əsas göstəricisi | İşçi sənədlərinin işlənmə dəyərinin sabit kəmiyyətləri (min manat) | |
|---|---|---|---|---|
| | | | a | b |
| 1. | Rayonun müfəssəl planlaşdırma layihəsi<br>Ərazi aşağıda göstərilən ölçü vahidi qədər olduqda<br>30-dan 50 ha-dək | 1 ha | 1291 | 96 |
| 2. | - - - - - - - - - - | - - - - - | - - - | - - - |
| 3. | - - - - - - - - - - | - - - - | - - - | - - - |
| 4. | - - - - - - - - - - | - - - - - | - | - - - |
| 5. | 250-dən 500 ha-dək | 1 ha | 6655 | 25 |

**1.** Sahəsi 25 ha olan rayonun müfəssəl planlaşdırma layihəsinin hazırlanması üçün layihə-smeta sənədlərinin işlənmə dəyərinin təyin edilməsi tələb olunur. Dəyər aşağıdakı düsturla təyin edilir:

$$C = a + b\,(0{,}4x_{min.} + 0{,}6x_{verilən});$$ **burada:**

**a** və **b-** cədvəl üzrə sabit kəmiyyətlərdir;

$x_{min}$- cədvəldə verilmiş minimum göstərici;

$x_{verilən}$- layihələndirilən obyektin verilmiş göstəricisidir;

$$C = 1291 + 96\,(0{,}4 \times 30 + 0{,}6 \times 25) = 3883$$

**2.** Sahəsi 600 ha olan rayonun müfəssəl planlaşdırma layihəsinin hazırlanması üçün layihə-smeta sənədlərinin işlənməsi dəyərinin təyin edilməsi tələb olunur. Dəyər aşağıdakı düsturla təyin edilir:

$$C = a + b\,(0{,}4x_{max.} + 0{,}6x_{verilən});$$ **burada:**

**a**və **b-** cədvəl üzrə sabit kəmiyyətlərdir;

$x_{max.}$- cədvəldə verilmiş maksimum göstərici;

$x_{verilən}$- layihələndirilən obyektin verilmiş göstəricisidir.

$$6655 + 25\,(0{,}4 \times 500 + 0{,}6 \times 600) = 20655$$